**AZƏRBAYCAN RESPUBLİKASININ SƏHİYYƏ NAZİRLİYİ**

**Ə M R**

**№ 18**

**Bakı şəhəri** **"19" 03. 2018 il**

**"Rezidenturada həkim-mütəxəssislərin hazırlığını aparan təhsil müəssisələrinin siyahısının təsdiq edilməsi barədə"**

Azərbaycan Respublikası Prezidentinin 25 may 2006-cı il tarixli 413 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi haqqında Əsasnamə"nin 14.5-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 21 noyabr 2013-cü il tarixli 330 nömrəli qərarı ilə təsdiq edilmiş "Rezidentura təhsilinin məzmunu və təşkili Qaydaları"nın 3.1-ci bəndinə uyğun olaraq

**ƏMR EDİRƏM:**

1. "Rezidenturada həkim-mütəxəssislərin hazırlığını aparan təhsil müəssisələrinin siyahısı" (bundan sonra – siyahı) təsdiq edilsin (əlavə olunur).
2. Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin 23.07.2010-cu il tarixli 57 nömrəli əmrinin 1-ci, 2-ci və 3-cü hissələri ləğv edilsin.
3. Hazırda həkim-mütəxəssislərin hazırlığını aparan klinik bazalara rezidentura təhsili üzrə metodik rəhbərlik cari tədris ilindən başlayaraq Azərbaycan Tibb Universitetinin Rezidentura şöbəsinə həvalə edilsin.
4. Siyahıda təsdiq edilən təhsil müəssisələrinin rəhbərlərinə Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi (Naxçıvan Dövlət Universitetinə münasibətdə Naxçıvan Muxtar Respublikasının Səhiyyə Nazirliyi) ilə razılaşdırılmaqla həkim-mütəxəssislərin təhsil proqramlarına uyğun hazırlığının aparılması üçün müvafiq kadr potensialına və maddi-texniki bazaya malik olan səhiyyə və elm müəssisələri ilə müqavilə bağlamaq səlahiyyəti verilsin.
5. Əmrin icrasına nəzarət Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Kadrlar, elm və təhsil şöbəsinin müdiri Kəmalə Mehdiyevaya həvalə edilsin.

**Nazir** **Oqtay Şirəliyev**

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin

19.03. 2018-ci il tarixli 18 nömrəli əmri ilə

təsdiq edilmişdir

**Rezidenturada həkim-mütəxəssislərin hazırlığını aparan təhsil müəssisələrinin siyahısı**

1. Azərbaycan Tibb Universiteti
2. Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu
3. Naxçıvan Dövlət Universiteti